**9 fevral 2024-cü il tarixdə Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi ilə bağlı keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimovun**

**M Ə R U Z Ə S İ**

Yubiley tədbirinin hörmətli iştirakçıları,

Əziz həmvətənlər,

Azərbaycan dövlətçiliyi tarixində mühüm yer tutan Naxçıvan Muxtar Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və şəxsən öz adımdan sizi və muxtar respublika sakinlərini təbrik edirəm. Hesab edirəm ki, ölkəmizdə keçirilmiş növbədənkənar prezident seçkilərində dövlət başçımızın tarixi və parlaq qələbəsi də 100 illik yubileyə, xalqımıza ən böyük hədiyyədir.

Ölkəmizin, Cənubi Qafqazın, elcə də bütövlükdə regionun siyasi həyatında mühüm hadisələrdən biri olan bu tarix həm də bir növ keçmişə nəzər salmaq, onu düzgün təhlil etmək baxımından da olduqca əhəmiyyətlidir.

Naxçıvan qədim Azərbaycan torpağı, ölkəmizin ayrılmaz bir parçası, üzvi tərkib hissəsidir. Naxçıvan türk, oğuz yurdudur. Bu diyar tarixin müxtəlif dövrlərində minilliklər boyu Azərbaycanın cənub-qərb ərazilərinin qorunub-saxlanması və daha da möhkəmləndirilməsi uğrunda həmişə mübarizə aparıb, torpaq, məmləkət uğrunda mübarizənin simvoluna çevrilib. Dünya tarixində və siyasi coğrafiyasında Naxçıvan Muxtar Respublikasının yerləşdiyi bu qədər kiçik, təbii resurslarla o qədər də zənginliyi ilə seçilməyən ərazinin əhəmiyyətli siyasi aktor kimi mövcud olması, həm də bu mövcudluğu qazandığı uğurlar, keçdiyi şərəfli yol və tarix baxımından daha da zənginləşdirmiş, kifayət qədər tanınmış və maraqla izlənilən çox az nümunə var. Elmdə bu tip hadisələrə qiymət verilərkən buna fenomen deyilir. Bu siyasi fenomenin qiymətləndirilməsi, öyrənilməsi, təhlili şübhəsiz indiki və gələcək nəsil tədqiqatçıları üçün mühüm araşdırma predmeti olacaq.

“Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 30 dekabr 2023-cü il tarixli Sərəncamı da məhz ən yüksək səviyyədə muxtariyyətin Azərbaycan dövlətçiliyində oynadığı rola verilən yüksək qiymətdir. Naxçıvanın milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətlərinin olması, strateji mövqeyi ilə seçilməsi tarixən onu vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyarın qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etməsini sərəncamda qeyd edən ölkə başçısı cənab İlham Əliyev, Naxçıvan Muxtar Respublikasının yaranmasını Azərbaycanın siyasi tarixinin əhəmiyyətli hadisəsi kimi qiymətləndirməsinin göstəricisidir. Burada yubiley sərəncamı haqqında danışarkən, bir məqama da xüsusi diqqət yetirmək istərdim. Dövlət başçımız sərəncamında Naxçıvan Muxtar Respublikasının “yaradılması” deyil, məhz “yaranması” ifadəsini işlətməsi onun Naxçıvanın

muxtariyyət statusunun qazanmasını kiminsə, ya da kimlərinsə fəaliyyəti deyil, bütövlükdə tarixi və siyasi proseslərin məntiqi davamı kimi qiymətləndirməsinin təzahürüdür. Bu, eyni zamanda Ulu Öndər Heydər Əliyevin siyasi irsinə verilən qiymət və sayğının nümunəsidir.

**Naxçıvan Muxtar Respublikası tarixin ziddiyətli, Azərbaycan xalqı üçün təlatümlü hadisələr və nəticələrlə dolu olan son əsrdə Azərbaycan coğrafiyasının – Qərbi Azərbaycanın bir hissəsində dövlətçiliyimizin qorunub saxlandığı strateji bölgə, eyni zamanda türk dünyasını birləşdirən strateji körpüdür.** Əlverişli təbii-coğrafi mövqeyi, Şərqlə Qərbi birləşdirən qədim İpək yolunun üzərində yerləşməsi onu böyük dövlətlərin geosiyasi maraqlarının kəsişdiyi regiona çevirib. Ərazisi dəfələrlə işğal olunsa da, Naxçıvan heç vaxt əyilməmiş, xalqımıza məxsus mədəniyyətini, adət-ənənələrini, ən əsası isə, tarixi ərazisini qoruyub saxlaya bilmiş, müasir dövrümüzədək gətirib çıxarmışdır.

Naxçıvan heç zaman özünü Azərbaycandan ayrı təsəvvür etməmiş, bütün dövrlərdə dünyanın bir çox dövlətləri üçün də böyük coğrafi-siyasi və strateji əhəmiyyət kəsb etmişdir. Xüsusilə, ötən əsrin əvvəllərində yaranmış şəraitdən istifadə edən erməni ekspansionistləri Naxçıvana qarşı ərazi iddiaları irəli sürmüş, bu diyarı Ermənistana birləşdirmək üçün bütün vasitələrə əl atmışdır. Bölgə əhalisinin inadlı müqaviməti nəticəsində Naxçıvan Azərbaycanın əzəli, əbədi tərkib hissəsi kimi qorunub saxlanılmış və nəticədə ona Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Naxçıvanın muxtariyyət statusu qazanması bu bölgədə 1918-1921-ci illərdə cərəyan edən proseslərin, onlara təsir edən daxili və xarici amillərin, bölgənin və regionun geosiyasi vəziyyətinin və iki mühüm beynəlxalq müqavilənin sayəsində mümkün olmuşdur.

Həqiqətən də Naxçıvan əhalisi, həmin dövrün demokratik ruhlu ziyalıları bölgənin təhlükəsizliyinə, erməni ekspansionistlərinin hərbi basqınlarına qarşı mərdliklə mübarizə aparmış, qanları bahasına qədim diyarı qorumuşlar. Hələ 1918-ci ildə Naxçıvan Milli Şurası Xalq Cümhuriyyəti hökumətinə yazdığı məktubda göstərirdi ki, *“Biz ermənilərə tabe olmuruq, tezliklə Azərbaycan qoşunları tərəfindən Zəngəzurun azad edilməsini və Naxçıvanın Azərbaycana birləşməsini gözləyirik”.* Naxçıvan İnqilab Komitəsinin Azərbaycan hökumətinə 1920-ci il 10 avqust tarixli məktubunda da bildirilirdi: *“Əhalinin yekdil qərarı ilə Naxçıvan özünü Azərbaycanın ayrılmaz hissəsi hesab edir”.*

Yüz il əvvəl indiki Naxçıvan ərazisində əhalinin sayı 200 min nəfər idi. Tarixdə çox nadir hallarda 200 minlik əhali fövqalgüclərə (o zaman I Dünya müharibəsini qazanmış Antanta, sonradan isə bu gücə çevrilən bolşevik Rusiyasına) qarşı çıxaraq bu torpağı, qədim diyarımızı Ermənistanın bir vilayətinə çevirməyə imkan vermədi və bu gün Naxçıvana baxan hər kəs Ermənistanın türk torpaqları üzərində qurulduğunu görür, anlayır. **Çünki, bura itirdiyimiz Qərbi Azərbaycandan Azərbaycan dövlətçiliyinə qalan son parçadır.** Bunu 200 minlik əhali edib. Necə edib, hamıya məlumdur. Əhalisinin yarısından çoxunu itirərək, didərgin düşərək, ingilislər, amerikalılar və ermənilərlə vuruşaraq, itki verərək edib. Lakin, Azərbaycan olmaqdan imtina

etməyərək bunu bacarıb. Bu gün bu yolda canını qurban verərək, minlərlə məhrumiyyətlər görərək dözüb vuruşan, məntiqə görə məğlub olacağı düşünülən bir məqamda qalib gəlməyi bacaran insanların da anım günüdür. Allahdan onlara rəhmət diləyirik: Vəlidağda Ermənistan qoşunlarının qarşısına çıxanların, Cəhrini qoruyaraq həlak olanların, Nehrəmə Andranikin qoşunlarını buraxmayan əliyalın kəndlilərin, Yaycıda yandırılıb cəsədləri Araz çayına tökülən körpələrin və sadalaya bilmədiyim 100 mindən çox naxçıvanlının ruhları qarşısında baş əyirik. Ayrıca bu torpaqları qorumaq üçün gəlib burada canlarından geçmiş yüzlərlə türk əsgər və zabitlərinin də fədakarlığını unutmuruq.

Ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanın Qarabağ və Naxçıvan ərazilərinə erməni iddiaları baş qaldırmış, Moskvadakı mərkəzi hökümətin ikiüzlü siyasəti bu hadisələri qızışdırmışdı. Lakin 1990-cı ilin iyul ayında görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisini erməni işğalından və muxtariyyət statusunun ləğv olunması təhlükəsindən xilas etdi.

**“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən ən böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq”**, – deyən Ulu Öndər Heydər Əliyev Türkiyə rəhbərləri ilə Qars müqaviləsini və onun şərtlərini müzakirə obyektinə çevirməklə beynəlxalq aləmin diqqətini bir daha bu vacib məsələyə cəlb etmişdi.

Ümummilli Liderimiz Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, onun ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həllivacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmiş, onu çiçəklənən diyara çevirmişdir. Məhz buna görədir ki, **Naxçıvanın muxtariyyəti də haqlı olaraq Heydər Əliyev siyasi irsinin mühüm hissəsini təşkil edir.** Ulu Öndərin Naxçıvanın muxtariyyət statusunun qorunması, muxtar respublikanın yubileylərinin keçirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər bu gün də uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 80, 85, 90 və 100 illik yubileylərinin keçirilməsi haqqında imzaladığı sərəncamlar bunun bariz nümunəsidir.

Ölkə baçısının xüsusi diqqəti nəticəsində Naxçıvan Muxtar Respublikasının uğurları, qazanılan sosial-iqtisadi nailiyyətlər, yaradılan potensial onu bölgədə cəlbedici tərəfdaşa çevirməkdədir. Digər tərəfdən bu uğurların fonunda Naxçıvan Muxtar Respublikası daha da güclənən, dünyadakı mövqeyini daha da möhkəmləndirən Azərbaycanın inkişaf etmiş regionu olaraq tanınması, potensialının təbliğ etdirilməsi fəal iqtisadi və mədəni diplomatiyanın aktiv subyektinə çevirmişdir. Bu baxımdan Naxçıvanda keçirilən sammitlər, beynəlxalq tədbirlər, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin paytaxtı seçilməsi artıq Naxçıvanın bu münasibətlərdəki yeri və rolunun göstəricisidir.

Göründüyü kimi ölkə başçısı cənab İlham Əliyevin birbaşa diqqəti və qayğısı sayəsində bugünkü Naxçıvan muxtariyyətinin 100 illik yubileyi günündə istər siyasi, istərsə də iqtisadi sahədə qazandığı uğurları ilə Azərbaycanımızın qədim dövlətçilik ənənələrinə əsaslanaraq müasir, inkişaf etmiş diyarı kimi, bundan sonra da regionda və dünyada özünəməxsus yerini qoruyub saxlayacaq, üzərinə qoyulan missiyanı uğurla həyata keçirəcək.

Tarixə baxmadan, onu izləmədən olduğun yeri müəyyən etmək, gələcəyə dair planlar qurmaq mümkün deyil. Tarixə sayğı həm də gələcək nəsillərlə üzvi bağlılıq deməkdir. Bu mənada Azərbaycanımızın ayrılmaz parçası olan Naxçıvanın ölkə tarixindəki rolunu bilmək bizim hamımız, xüsusən də gələcək nəsillər üçün önəmlidir.

Tarixən elə olub ki, özünə qapandığı zaman zəif olan Naxçıvan ideyalara, mədəniyyətlərə açıldıqda çiçəklənib, möhkəmlənib, tarixdə şəxsiyyətləri və siyasətə, mədəniyyətə elmi töhfələri ilə yadda qalıb. Əminik ki, ölkə başçısı möhtərəm Prezidentimiz İlham Əliyevin apardığı siyasət nəticəsində Naxçıvan daha da inkişaf edəcək, çiçəklənəcəkdir.

Hörmətli tədbir iştirakçıları, hər birinizi bir daha Naxçıvanın muxtariyyətinin 100 illiyi münasibətilə təbrik edirəm.

Diqqətinizə görə minnətdaram.